**FƏLSƏFƏ VƏ SOSİOLOGİYA**

**UOT 316**

# SOSİAL İŞDƏ ƏLİLLİYİ OLAN UŞAQLARA KEYS MENECMENT METODUNUN TƏTBİQİ

**Aynur BAĞIRLI***

Məqalə redaksiyaya daxil olmuşdur: 11 noyabr 2023; çapa qəbul edilmişdir: 2 dekabr 2023; online-da çap edilmişdir: 25 dekabr 2023.

Received: 11th of November, 2023; accepted: 2th of December, 2023; published online: 25th of December, 2023.

**Açar sözlər:** *əlilliyi olan uşaqlar, keys menecment, keysin idarə olunması, keys menecmentalətləri, əlilliyi olan uşaqlara sosial xidmətlər*

## Giriş

Cəmiyyət müxtəlif kateqoriyalara məxsus olan şəxslərdən və sosial qruplardan ibarətdir. Bu qruplar içərisində çətin həyat şəraitində, böhran vəziyyətində olan sosial qruplar arasında, problemlərin idarə edilməsi və onun aradan qaldırılması üçün xüsusi dəstəyə ehtiyacı duyan şəxslər var. Çətin həyat şəraitində olan sosial qruplardan biri də, əlilliyi olan uşaqlardır. Əlilliyiolan uşaqlar istər ölkəmizdə qəbul edilmiş "Sosial xidmət haqqında qanun"da, istərsə də sosial işin hədəf qrupları olaraq sosial xidmətin göstərilməsi üçün mövcud olan risk qrupları sırasındadırlar. Əlilliyi olan uşaqlara sosial işçilər dəstək olarkən keys menecment metodundan və onun texnikalarından istifadə edirlər.

Məqalədə də əlillik anlayışı, anlayışa tarixi dövr ərzində yanaşmalar, eyni zamanda sosialişdə istifadə edilən keys menecment metodu əsasında əlilliyi olan uşaqlar və onlara dəstək xidmətlərinin təşkili əks etdirilib. Keys menecment əsasında xidmət alətləri və onlardan əlilliyi olanşəxslərə xidmət sahəsində istifadə texnikaları əksini tapmışdır. Əlilliyi olan uşaqlar elə bir sosialqrupu əhatə edir ki, göstərilən sosial xidmətlərin, eyni zamanda ailə və yaxın sistemləri əhatə etməsini vacib edir. Belə ki, əlilliyi olan uşaqların ailələrinin onların inkişafında və inkişaf etməyən bacarıqların formalaşmasında bir başa təsiri mövcuddur. Keys menecment metodu da məhzkompleks tədbirləri özündə əks etdirir.

## 1. Əlilliyi olan uşaqlara xüsusi metodların tətbiqi

Həssas kateqoriyalara daxil olan əhali qrupları içərisində əlilliyi olan şəxslər kəmiyyət xüsusiyyətləri və xüsusi dəstək mexanizmlərinə ehtiyacları olmaqla fərqlənir. Belə ki, Ümumdünya Səhiyyə Təşkilatının və Birləşmiş Millətlər Təşkilatının statistik hesabatına əsasəndünya əhalisinin 10%-ni əlilliyi olan şəxslər əhatə edir. Bu nəticə əlilliyi olan şəxslərin kəmiyyət etibarilə kifayət qədər geniş sosial-demoqrafik qrupu təşkil etdiyinin göstəricisidir. Əlilliyi olan şəxslər sabit fiziki, hissiyyat, psixi pozulmalar səbəbi ilə müəyyən maneələrlə qarşılaşdıqda, digərləri ilə bərabər imkanlardan istifadə edə bilməyən qruplara daxildir. Əlilliyi olanşəxslər haqqında hər bir ölkədə fərqli yanaşma, tərif istifadə edilməkdədir. Əlilliyi olan şəxslərlə bağlı günümüzə qədər bir çox ifadələr istifadə edilmişdir. Bunların bir çoxu kobud, ağır psixoloji təsiri ola biləcək ifadələr olmuşdur. Əlilliyi olan şəxslərə qarşı münasibətdə beynəlxalq təşkilatların bu sahədə dövlətlərlə birgə addım atmaqları müsbət təsirlərə səbəb olmuşdur.

Əlilliyi olan şəxslərin içərisində xüsusilə əlilliyi olan uşaqlar çətin həyat vəziyyətində olan

* *dosent əvəzi, Azərbaycan Turizm Menecment Universiteti*
*e-mail:* a.bagirli@atmu.edu.az

kateqoriyanı əhatə edir. Əlilliyi olan uşaqlar cəmiyyətdə ailələr üçün gözlənilməz vəziyyətə səbəb olur. Belə ki, ailə fərdləri ailə həyatına hazırlıq zamanı ancaq müsbət xəyallar və düşüncələrdə olduqları üçün əlilliyi olan uşaqla qarşılaşmaq onlar üçün gözlənilməz hadisə olur və qəbul edilməsi prosesində çətinlik çəkirlər.

Əlilliyi olan uşaqlarla iş prosesi, eyni zamanda ailə ilə birgə fəaliyyəti tələb edir. Çünki ailənin erkən müdaxiləsi, vəziyyəti idarə etmə bacarığı uşağın gələcək həyatına ciddi təsir göstərə bilir.

Uşaqların sosial müdafiə ilə bağlı müəyyən proseslərə cəlb edilməsi, ümumilikdə istər dövlət, istərsə də beynəlxalq çərçivədə olan qurumların daim diqqət mərkəzindədir. Uşaq hü- quqlarının qorunması, uşaqların rifah səviyyəsinin təmini, əlçatan xidmətlərlə əhatəsi, təlim-tərbiyə prosesinin düzgün təşkili və digər məsələlərlə bağlı müxtəlif qanunlar, hüquqi, normativ aktlar, normalar qəbul edilmiş, eyni zamanda bu sahədə fəaliyyət göstərən qurumlar təsis edilmişdir.

Sosial işçilər məhz əlilliyi olan şəxslərin, uşaqların sosial müdafiəsinin təmini, onların cəmiyyətə inteqrasiyası, problemləri həll etmə gücü, düzgün istiqamətləndirilməsində və digər rollarda çıxış edərək, onlara dəstək olur. Sosial işin peşə və elm sahəsi olaraq formalaşmasına qədərki dövrdə əlilliyi olan şəxslərə xidmətdə bir sıra münasibətlər və yanaşmalar olmuşdur. Əlillik ilə bağlı anlayışlar tarixi inkişaf kontekstində bir-birini əvəz edərək, müxtəlif formalarda mövcud olmuşdur.

*Nöqsanlılıq:* Bu anlayışı qəbul edən cəmiyyətlər, əsasən əlilliyi olan şəxsləri bədən nahiyəsində və ya orqanlarda nöqsanlı olaraq görür.

*Üzrlülük:* Hər hansı fəaliyyətləri yerinə yetirəndə əlilin fiziki, psixi, ruhi və digər məhdudiyyətlərlə, çətinliklə qarşılaşmasında əlillik halı üzrlü səbəb olaraq qəbul edilir. Bu çətinlikləri aşmaqda isə hər hansı dəstək xidmətlərinə ehtiyac görülmür. Yanaşma nəticəsində mövcud ola biləcək bacarıqların formalaşması, yaxud inkişafının qarşısında maneə qoyulur.

*Məhdudiyyət:* Bu yanaşma üzrlülük yanaşması ilə oxşarlıq təşkil edir. Belə ki, əlilliyi olan şəxslərə qrup olaraq yanaşılır. Şəxs öz rollarını icra edə bilməməsi mənasını ifadə edir (1, s. 9).

Sosial işçilər həssas qruplarla işləyərkən bir sıra metod və nəzəriyyələrə istinad edərək peşəkar fəaliyyət göstərir. Sosial işin obyektini ümumiləşdirsək, burada bir sıra kateqoriyadan ibarət qrupları müşahidə edərik. Hər bir kateqoriya cəmiyyətdə diskriminasiya, qeyri-bərabər mühit, yaxud problemlərlə baş etmədə müəyyən dəstək xidmətlərinə ehtiyac duyan şəxsləri əhatə edir. Həmin obyektlərdən biri əlilliyi olan şəxslərdir. Xüsusilə uşaqlıq yaş dövründə olan şəxslər, daha həssas qruplar hesab edilir. İki kateqoriyanın ümumiliyində isə əlilliyi olan uşaqlar xüsusi qayğı ilə əhatələnirlər. Qeyd edilən metodlar sırasında, xüsusilə keys menecment metodundan geniş istifadə edilir.

## 2. Keys menecment metodunun tətbiqi

Keyslərin idarə edilməsi metodu, sosial işdə keys menecment adlanır. Keys menecment struktur səviyyəsində idarə etmədə effektiv rol oynayır. Xüsusilə, benefisiar ilə əməkdaşlıqda və uşağın qiymətləndirilməsi, onun üçün zəruri olan xidmətlərə əlçatanlığı müəyyən etməkdə və xidmətlərin təşkilində koordinasiya, monitorinq dəstəyini əhatə edir.

Keys menecment əlilliyi olan uşaqlara xidmətdə, uşağa və ailəyə sistemli şəkildə, lazımi anda və birbaşa dəstəyin yönləndirilməsi ilə planlaşdırılan və məqsədlərə uyğun olan fərdi yanaşmanı təşkil edir. Sosial işçilər keys menecment metodunda digər sahə nümayəndələri ilə birgə çoxprofilli komanda olaraq fəaliyyət göstərirlər. Xidməti fəaliyyətdə vacib məqamlardan biri istər sosial işçilər, istərsə komanda fəaliyyəti qanunlara əsaslanmalı, hüquqi struktura malik olmalıdır. Ailənin sosial problemlərini qiymətləndirdikdən sonra benefisiarın dözümlülük səviyyəsini müəyyənləşdirməli, xidmətlərin əlaqələndirilməsi isə mövcud resurslar əsasında baş tutmalıdır.

Əlilliyi olan uşaqlara keys menecment metodunu tətbiq edərkən aşağıdakı tələblər mövcuddur:

Sosial iş zamanı uşaqların qarşısına qoyulan ilkin tələb, sosial təhlükəsizlik vəziyyətinin

yaradılması və onların təhlükəli vəziyyətdə olmasının qarşısının alınmasıdır;

Etik standartlara uyğun addımların atılması;

Məlumatlarda razılığın təmin edilməsi və proses haqqında dəqiq məlumatlandırmanın edilməsidir. Hətta uşağın yaşı 5 yaş və ya ətrafı olarsa, ona uyğun şəkildə müəyyən qədər məlumat vermək mümkündür;

Məlumatların konfedensiallıq əsasında təşkili vacib əhəmiyyətə malikdir. Hətta məlumat haqqında həmkarlara, bir başa proseslə əlaqəsi olmayan şəxslərə belə məlumat vermək düzgün hesab edilmir;

Əlilliyi olan uşaqlarda əqli gerilik mövcuddursa, bu zaman qərarvermə prosesində ailə ilə məsləhətləşmə və uşağı ailə ilə birgə məlumatlandırmaq lazımdır. Əqli gerilik vəziyyətinin ağırlıq dərəcəsi də məlumatlandırma prosesində rol oynayır. Əqli inkişafında gerilik olmayan, digər əlillik kateqoriyalarında isə, xüsusən fiziki inkişafında gerilik olan şəxslərlə ünsiyyət mümkün olur.

İdarə etmənin standart metodologiyası aşağıdakı addımları özündə birləşdirir:

- İşin müəyyənləşdirilməsi, benefeisiarın qeydiyyatının aparılması;
- İlkin qiymətləndirmə;
- Fərdi plan hazırlanması və tətbiqi;
- İcranın monitorinqi;
- Nəticə;
- Nəticənin təhlili;
- İşin bağlanması;
- İş bağlandıqdan sonra belə ailənin və ailənin monitorinqinin aparılması (davamlı) (2, s. 8-13).

Qeyd etdiyimiz kimi, əlilliyi olan uşaqlarla yanaşı, onların ailələri ilə də işləmək vacibdir. Çünki ailənin psixo-sosial, iqtisadi və digər sahələrlə əlaqəli vəziyyəti uşağa və onun gələcək inkişafına təsirli ola bilər. Əlilliyi olan şəxslərin ailələri ilə çalışmaq, əlilliyi olan uşağın əlillik səbəblərini müəyyən etmək üçün xüsusi rola malikdir. Belə ki, əlillik ana bətnində olduğu zaman müəyyən edilibsə və ya hər hansı risk amilləri varsa ailənin artıq prosesə hazırlıqlı olma- sının göstəricisidir. Bu halda, yaranan vəziyyət ailə üçün ciddi təəccüb effekti yaratmır. Lakin digər hallarda ailənin qəbul etmə prosesi daha ağır baş verə bilər. Əlilliyi səbəblər və hər bir səbəbə daxil olan altamillər şəklində ümumiləşdirərək qeyd etmək olar.

Əlilliyə gətirib çıxaran nəticələr:

*Doğumdan əvvəlki səbəblər:*

1) Ana bətnində olarkən, ananın zərərli maddələrdən istifadəsi;
2) Genetik səbəblər;
3) Yolxucu xəstəliklər;
4) Virus, inkefsiyalar;
5) Hamiləlik zamanı rentgen şüasına məruz qalma;
6) Şəkər xəstəliyi;
7) Həkim nəzarətinin zamanında edilməməsi;
8) Fiziki zədə və digər.

*Doğumdan sonrakı səbəblər:*

1) Uşağın uzun müddətli sarılıq keçirməsi;
2) Yoluxucu xəstəliklər;
3) Yaxşı qidalanmama;
4) Zəhərlənmə;
5) Həddindən çox dərman qəbulu;
6) Yüksək dərəcəli hərarət;
7) İnfeksion xəstəliklərə yoluxma.

*Doğum zamanı yaranan səbəblər:*

1) Doğumun ağır olması;

2) Erkən doğum;
3) Doğumun gecikməsi;
4) Doğumun tibbi qurumlarda edilməməsi;
5) Uşağın doğum zamanı zədə alması;
6) Uşaqda oksigen çatışmazlığı
7) Həkim səhlənkarlığı (1, s.15).

Sosial işçilərin əlilliyi olan şəxslərlə işləyərkən istifadə etdikləri nəzəri yanaşmalar:

*Sistem yanaşması:* Sistem yanaşması fərdi əhatə edən müxtəlif səviyyələr əsasında hazırlanan sistemləri nəzərdə tutur. Belə ki, insanın həyat fəaliyyətinin uğurlarına, xüsusən onun yaxın çevrəsi, bilavasitə digər səviyyədə olan çevrəsi aid olunur;

*Həll yönümlü yanaşma:* Bu yanaşma əsasında, sosial işçi əlilliyin qarşısını tam ala bilməsə belə, benefisiarın istəklərini nəzərə alaraq, onun üçün əlçatan mühitlərin formalaşmasına şərait yaradır. Belə ki, şəxsin eşitmə əlilliyi varsa, onun eşitmə problemi tamamilə həll edilməsə də, eşitmə cihazı ilə təmin olunur;

*Gücləndirmə yanaşması:* Benefisiarın güclü tərəflərinin ortaya çıxarılması, bacarıqlarının inkişaf etməsinə dəstək olmaq, arzularını ifadə edərkən motivasiya vermək metodu əhatə edir. Gücləndirmə metodu müdaxilə planı əsasında tətbiq edilir, yaxud qiymətləndirmə prosesi zamanı hər hansı məlumatların əldə edilməsində tətbiq edilir. Bəzən benefisiar güclü tərəflərinin fərqində ola bilmir. Bu zaman ona fərqindəlik qazanmaqda, bacarıqlarını istifadə edə bilməkdə sosial işçilər dəstək olmaqdadır;

*Feminist yanaşma:* Bərabər yanaşmanı qadın əlilliyi olan şəxslər üçün bərabər imkanlar üçün mübarizəni ehtiva edir. Belə ki, statistik məlumatlar əlilliyi olan qadınların daha çox cinsi zorakılığa məruz qalması faktını təsdiqləyir.

Sosial işçilər əlilliyi olan uşaqlarla işləyərkən, əlilliyin növünə uyğun olaraq hər bir metodu individual qaydada həyata keçirirlər. Əlilliyin aşağıdakı növləri var:

Fiziki əlillik;
Əqli, psixi əlillik;
Autistik;
Eşitmə və nitq;
Xroniki xəstəliklər.

Proseslərin öyrənilməsi zamanı ilkin tanışlıq mərhələsindən sonrakı mərhələ qiymətləndirmə mərhələsi təşkil edir. İlkin olaraq səbəblər, əlilliyin növləri və metodlar mərhələləri və hər birində sosial işçiyə ünsiyyət, yönləndirmə, benefisiarın etibarını qazanma və digər dəstək göstərirsə, qiymətləndirmə prosesi isə birbaşa məlumatların toplanılmasını əhatə edir. Qiymətləndirilmə prosesi müdaxilə prosesinə ciddi təsir edən mərhələlərdən hesab edilir. Qiymətləndirilmənin düzgün və hərtərəfli təyini müdaxilənin uğurlu olmasını şərtləndirir. Bu səbəblə də, qiymətləndirilmə zamanı keys menecment əsasında məlumat toplama prosesi müəyyən qanunauyğunluq və ya yollarla təşkil edilir.

–Benefisiara və ya onun ailəsinə uyğun səmərəli ünsiyyət texnikalarının düşünülməsi.
–Bunun üçün də fərdləri təkbətək müşahidə etmək vacibdir;
–Benefisiarın özünə verdiyi dəyəri müəyyən etmək üçün müəyyən sosial, psixoloji testlərdən istifadə etmək;
–Psixometrik yoxlamaların təşkili vasitəsilə, başqaları ilə olan münasibətlərini müəyyən etmək mümkündür;
–Müşahidə isə keys menecerə kömək edir ki, çalışdığı şəxs haqqında məlumatlar əldə etsin;
– Qrup fəaliyyətlərinə cəlb etmək, müşahidə etmək (3, s.1-3).

### 3. Keys menecment alətləri

Qiymətləndirmə zamanı istifadə edilən alətlər isə aşağıdakılardır:

Ekoxəritənin mərkəzində benefisiar, ətraf göstəricilərdə isə ailə əlaqələri və digər sistemlər

əksini tapır. Ekoxəritələrdə qalın xətlər güclü əlaqəni, ox istiqaməti təsiri, qırıq-qırıq xətlər zəif əlaqələri, dalğalı xətlər isə münaqişəli vəziyyəti göstərir (4).

Genoqram: Əlilliyi olan uşaqlarla keys menecmentdə uşaq müəssisəyə düşübsə, yaxud ailə sistemləri arasında hər hansı problemlər mövcuddursa, ən vacibi isə gücləndirici əlaqələrin,tələbatlar dairəsinin və müdaxilə məqsədlərinin aşkarlanması üçün istifadə edilir. Genoqramın digər məqsədi isə benefisiarı daha yaxşı tanımaq üçün ailə sistemini başa düşmək, dini inanclar, dəyərlər və adət-ənənələrini müəyyənləşdirməkdir. Geneoqram ailənin güclü və zəif tərəflərinimüəyyən etməkdə də yardımçı vasitədir (5) .

Fərdi inkişaf planları əlilliyi olan uşaqların inkişafında xüsusi rol oynayır. Fərdi inkişaf planlarında əlilliyi olan uşağın maraqları, ehtiyacları, bacarıqları və inkişafdan geri qalmış bacarıqları əsasında məqsədlər təyin edilir. Həmin məqsədlərin əsasında inkişaf yolu təyin edilir. Əlilliyi olan uşaqlar üçün vacib bacarıqların əldə edilməsində fərdi inkişaf planları yönləndirici rol oynayır. Fərdi inkişaf planlarında keys menecmentin çoxprofilli komanda üzvlərindən prosesə daxil olanlar müvafiq olaraq qeyd edilir. Prosesin uğurlu təşkili üçün isə keys menecer, yəni sosial işçi idarəetmə və koordinasiya fəaliyyətini təşkil edir.

Fərdi inkişaf planları əlliyi olan uşaqlar üçün iki formada təşkil edilir. Uşaq müəssisədəxidmət görürsə, ailə tərəfindən atılıbdırsa, fərdi plana ailənin cəlb edilməsi çətinlik törətdiyi üçün və ailənin prosesdə aktiv iştiraka cəlb edilməsi, daimi olaraq uşağın yanında olmadığından çətinlik törədir. Beləliklə, işçi heyət, əsasən, fərdi planda uşaq üçün qoyulmuş məqsədlər üzərində çalışır.

İkinci forması isə valideynin iştirakı ilə, məqsədlərə uyğun fəaliyyətdə valideynlərin aktivliyinin təyin edilməsinə şərait yaradılır.

Fərdi inkişaf planlarının yerinə yetirilməsində sosial işçi benefisiara müəyyən dəstək göstərir. Bunun üçün müdaxilədə qeyd edilən planlara əsasən davamlı fəaliyyətin təmini üçün koordinasiya fəaliyyətini təşkil edir. Koordinasiyanın uğurlu təşkilinin əsas nöqtəsi kommunikasiyanın düzgün qurulması və davamlı izlənmədir.

Xidmət təminatının izlənməsi:

–Xidmət benefisiarın ehtiyaclarını tam ödəyirmi;

–Görüşlər təşkil edib, müzakirə etmək;

–Çox profilli komanda ilə birgə yığıncaqlar təşkil etmək;

–Fərdi iş müzakirələrini təşkil etmək.

Keys menecmentin sonlandırılması iki halda olur. Əlilliyi olan uşağın və ailənin bu sahədə problemləri aradan qaldırmaq bacarıqları mövcud olduqda, problem həll yönümlü şəkildə təşkil edildikdə. Proses bitdikdə belə sosial işçilər, yəni keys menecerlər gedişata hər üç aydan bir baxış keçirirlər. Bunu daha dəqiq izah etsək əlaqə yaradılır. Əlaqə yaradılma müddəti hər intervaldan sonra proses uğurlu davam edirsə, uzadıla bilər.

Keys menecmenti digər sosial dəstək metodlarından fərqləndirən bir sıra tərəfləri mövcuddur. Bunlar aşağıdakılardır:

–Benefisiarın maraqlarının təmininin üstün tutulması;

–Davranışlarında gücləndirmə metodu ilə yeniliklər əldə etməsinə dəstək;

–Mövcud vəziyyətini nəzərə alaraq kompleks yanaşma;

–Əməkdaşlıq, qurumlar arası koordinasiya.

Ümumilikdə sosial işdə keys menecment metodu, sosial işin və keysin idarə edilməsi, səmərəli həllinə istiqamətlənmiş metoddur. Bu metod əsasında sosial işçilər, bir sıra sosial problem kateqoriyaları üzrə mərhələli fəaliyyət göstərirlər. Keys menecment metodundan əlilliyi olan uşaqların sosial problemlərinin həlli, cəmiyyətdə bərabər imkanlara sahib olmaları, onların sosial mühitə inteqrasiyası, güclü tərəflərinin müəyyənləşdirilməsi və inkişafı üçün planlar hazırlanaraq, tətbiq edilir. Keys menecment əməkdaşlığa və koordinasiyalı fəaliyyətə əsaslandığına görə, benefisiar üçün zəruri ehtiyaclara əlçatanlıq rahat olur. Həmçinin keys menecment sistemlər nəzəriyyəsi, sosial işin digər nəzəri aspektlərini özündə daşıdığı üçün əlilliyi olan uşaqlara münasibətdə uşağın ehtiyaclarının təminin tam səmərəli olması üçün ətraf sistemlərə və təsirlərə

diqqət yetirməyə yönəldir. Müdaxilələr təşkil edilərkən, həmçinin ailənin vəziyyəti və ailə üzvlərinə yönümlü fəaliyyətlər də təşkil edilir.

**Nəticə**

Məqalədə əlilliyi olan uşaqlar üçün ən unikal dəstək metodu olan keys menecment metodu haqqında danışılmışdır. Əlilliyi olan uşaqlar və onların ailələrinə dəstək prosesi keys menecment metodu əsasında mərhələli, sistemli şəkildə təşkil edilir. Burada qiymətləndirilmənin uğurlu təşkili uşağı və ailəni kifayət qədər tanımaq, tələbatlarını və ehtiyaclarını müəyyən etmək üçün əlilliyin səbəbləri müəyyənləşdirilir. Eyni zamanda keys menecmentin alətlərindən istifadə edilir.

Keys menecmentin alətləri geneoqram, ekoxəritə və fərdi inkişaf planlarının təşkilidir. Ailə və uşağın tələbatları, dəyərləri, əhatə olunduğu sistemlər və onlarla qarşılıqlı kontekstdə münasibətlərin öyrənilməsində ekoxəritə və geneoqram vacib rol oynayırsa, müdaxilə prosesində isə müəyyən məqsədlər qoyaraq, fərdi inkişaf planları əsasında onlar üzərində müəyyən addımlar atılır.

Əlilliyi olan uşaqlar və onların inkişafı, reabilitasiyası, problemlərinin aradan qaldırılması və onlarla baş etmə bacarıqlarının formalaşmasında sosial işçilərin və sosial işdə geniş istifadə edilən keys menecmentin rolu var.

**ƏDƏBİYYAT**


1. Dr. Erkan Dikci. Engellilik ve sosial hizmet. Konya: Eğitim yayın evi, 2022, 208 s.
2. Case Management Practical Guide, Approved by Order of the Minister of Labor, SocialProtection and Family. 2017, 130 p.
3. Dr. Denes M. Green. Proactive Case Menecment, Published by American Research Institute for Policy Development, Journal of Sociology and Social Work, June 2017,8 p
4. https://www.socialworkportal.com/eco-map-social-work/
5. https://genopro.com/articles/what-is-a-genogram-in-socialwork/#:~:text= Conclusion,%2C%20adolescents%2C%20and%20even%20adults.


***Резюме***

***Айнур Багирли***

***Применение метода кейс-менеджмента к детям с ограниченнымивозможностями в социальной работе***


Среди уязвимых групп населения одной из групп, которая по численности охватывает значительную часть, являются инвалиды. Долг государства и организаций, оказывающих услуги в гуманитарной сфере, а также общества–обеспечить равное участие лиц с ограниченными возможностями в жизни общества вместе с другими лицами. Дети с ограниченными возможностями являются более уязвимой категорией среди людей с ограниченными возможностями и одной из групп, которые должны быть под-держаны обширными услугами.

Дети с ограниченными возможностями здоровья–это социальная группа, которая находится в трудных жизненных условиях и нуждается в услугах и поддержке семьи, в которой они родились и существуют, и этих детей. Дети с ограниченными возможностями нуждаются в ряде услуг поддержки. В социальной работе метод кейс-менеджмента используется для комплексного применения этих услуг и кейс-менеджмента. Управление делами — это подход к оказанию услуг по ведению дел в социальной работе, включающий многоуровневые услуги для достижения соответствующей цели. Это процесс, отражающий деятельность социального работника как многопрофильной команды, оценивающий потребности и проблемы, реализующий совместно с социальным работником планирование достижения эффективных результатов.

В то же время в обслуживании детей с ограниченными возможностями используются соответствующие инструменты ведения дел. При работе с людьми с ограниченными возможностями возникает необходимость оказания услуг поддержки семьям на основе кейсменеджмента. Отражена взаимосвязь между этими потребностями, причинами и видами услуг для инвалидов.

Также в статье отражены инструменты, используемые при ведении дел с детьми с ограниченными возможностями, и цели их использования. Среди этих статей отражены генограмма, экокарта, индивидуальные планы развития, методы их применения, цели в литературе.

При этом метод ведения дел организуется поэтапно, исходя из определенныхэтапов социальной работы. В статье использование генограммы и экокарты в процессе оценки обусловлено приоритетом практических вопросов, упоминается информация об их пользе при изучении процесса. В разделе, посвященном плану вмешательства, практически упоминаются методы использования индивидуальных планов развития при обслуживании лиц с ограниченными возможностями. Подробно отражена организация плана вмешательства с индивидуальным планом развития, в каких случаях оно организуется совместно с родителями или без родителей.

**Ключевые слова:** *дети-инвалиды, ведение дел, ведение дел, ведение семей,социальные услуги для детей-инвалидов*

***Summary***

***Aynur Bagirli***

***Application of case management method to children with disabilities in social work***

Among the vulnerable population groups, one of the groups that covers a considerable part in terms of quantity is persons with disabilities. It is the responsibility of the state and organizations providing services in the humanitarian field, as well as the society, to ensure equal participation of people with disabilities in society together with other people. Children with disabilities are a more vulnerable category among people with disabilities and oneof the groups that should be supported with extensive services.

Children with disabilities are a social group that is in difficult living conditions and needsservices and support for the family where they were born and exist, and for those children. Children with disabilities need a range of support services. In social work, the case management method is used for complex application of these services and case management. Case management is a service delivery approach to case management in social work, involving tiered services for an appropriate target. It is a process that reflects the activity of the social worker as a multi-profile team, evaluates the needs and problems, and implements planning for the achievement of effective results with the social worker.

At the same time, appropriate tools of case management are used in the service of childrenwith disabilities. When working with people with disabilities, there is a need to provide supportservices to families based on case management. The relationship between these needs, causes and types of disability services has been reflected.

The article also reflects the tools used in case management with children with disabilities, and the goals of their use. Among those articles, genogram, ecomap, individual development plans, methods of their application, goals in the literature are reflected.

At the same time, the case management method is organized in stages based on certain stages of social work. In the article, the use of genogram and ecomap in the evaluation process due to the priority given to practical issues, information about their benefits in studying the process is mentioned. In the section related to the intervention plan, the methods of using individual development plans in the service of persons with disabilities are practically mentioned. The organization of the intervention plan with the individual development plan is reflected in detail in which cases it is organized together with the parents or without the parents.

**Keywords:** *children with disabilities, case management, case management, case management families, social services for children with disabilities*

Redaksiya heyətinin üzvü f.ü.f.d., dos. Qaraməmmədli Yasin Alı oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.